# Mərakeş COP29-da məmnuniyyətlə təmsil olunacaq

Mərakeş Krallığının milli bayramı – Taxt-Tac Günü münasibətilə bu ölkənin səfirliyi tərəfindən iyulun 30-da Bakıda rəsmi qəbul təşkil edilib.

Tədbirdə əvvəlcə Azərbaycanın və Mərakeşin Dövlət himnləri səsləndirilib.

Mərakeşin Azərbaycandakı səfiri Məhəmməd Adil Embarş çıxış edərək ölkəsinin son illərdə qazandığı uğurlar barədə danışıb. Diplomat qeyd edib ki, Mərakeş bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29-da məmnuniyyətlə təmsil olunacaq.

Mərasimdə Azərbaycan Hökuməti adından çıxış edən mədəniyyət naziri Adil Kərimli əlamətdar gün münasibətilə təbriklərini çatdırıb. Qeyd olunub ki, iki ölkənin rəhbərləri arasında olan səmimi münasibətlər Azərbaycan-Mərakeş əlaqələrinin möhkəmləndirilməsinə öz töhfəsini verir. Ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq ildən-ilə dərinlə

Mədəniyyət.- 2024.- 2 avqust, № (57-58).- S.2.